# *“Kallaşa-kallaşa karlaşır insan” və ya qayğısızlıq qana işləyəndə*

***Akif MƏMMƏDOV***

*Əlimdə şəhid valideynin həmyerlilərindən, onların qayğısızlığından giley-güzar dolu məktubu, qəlbimdə şairin:*
*İlahi, sən saxla, kallaşır insan,*
*Ölüm adiləşir, dərd adiləşir,* - misraları Fatmayı qəsəbəsinə gedirəm.

Sinəsinə oğul dağı çəkilmiş İmamyar kişi və Şahnaz xala ətrafdakılardan nə umurlar? Qayğı, səmimiyyət, bir də oğullarının adının əbədiləşdirilməsini... Bir azdan həm də öyrənəcəyəm ki, onlara kiminsə maddi yardımı lazım deyil. Bunu Abşeron rayon İcra Hakimiyyətinin Fatmayıdakı nümayəndəsi də təsdiq etdi: “Bilirsən, bir təhər adamdılar e... Çağırıb deyirəm ki, nəyə ehtiyacınız var? Deyirlər ki, heç nə lazım deyil”. Valideynlər isə elə hüzura çağırılmaqdan inciyirlər: “Bir dəfə qapımızı açsalar, nə olar? Diyar çağırışdan bir gün ləngimişdi, az qaldılar qapımızı dabanından çıxarsınlar. Amma oğlumuzun şəhid olmasından artıq bir il keçir, heç kəsin yadına düşmürük”.

1994-cü il mayın 13-də Ağdərədəki döyüşlərdə şəhid olmuş Diyar İmamyar oğlu Allahverdiyevin oxuduğu Fatmayı qəsəbə orta məktəbinə gedirəm. Öyrənmək istəyirəm görüm, məktəb qəsəbənin yeganə şəhidini, özünün on bir il tərbiyə və təhsil verdiyi məzununu şagirdlərinə necə sevdirir, necə örnək göstərir. Səliqə ilə tərtib edilib divardan asılmış stendə yaxınlaşıram. Yox, bu başqa şəhiddir. Məktəbin divar qəzetində də həmin şəhid haqqında yazı verilib. Məlum olur ki, o vaxtilə bu məktəbdə bir il təhsil alıb, sonra orta təhsilini şəhərdə tamamlayıb və ordan da cəbhəyə gedib. Diyarı isə xatırladan heç nə gözə dəymir. Atanın məktubundakı sətirlər yadıma düşür: “Kəndin yeganə şəhidi olmasına baxmayaraq, oğlumun təhsil aldığı məktəbə adının verilməsi hər cür süni maneələrlə mürəkkəbləşdirilir. Bunun əsas səbəbkarı Dadaş Bünyadzadənin nəvəsi, məktəbin direktoru Gülarə Bünyadzadədir”.

Bilməyənlər üçün: “Bünyadzadə Dadaş Xoca oğlu – sovet partiya və dövlət xadimi. 1908-ci ildən Sov.İKP-nin üzvü. 1918-ci ilin payızında və 1921-ci ildə Moskvada Lenin ilə görüşmüşdür... 1920-ci ilin martında Müsavat hökuməti Bünyadzadəni

güllələnməyə məhkum etmişdi" (ASE-dən).

Gülarə xanımdan valideynlərin bu istəklərinə münasibətini soruşuram. "Məktəbin Diyarın adına verilməsinə mən etiraz eləmirəm. Eləyə də bilmərəm. Bizim məktəbi qurtarıb, kənddə yeganə şəhid odur, amma...". Sonra da başlayır bu "əmma"nı əsaslandırmaq üçün qəribə səbəblər gətirməyə: "Əvvəla, kollektiv üç il bundan əvvəl məktəbə D.Bünyadzadənin adının verilməsi haqqında qərar çıxarıb. İndi elə həmin kollektiv durub qərarını necə dəyişsin? İkincisi, mən valideynə də başa salmağa çalışdım ki, 1941-45-də ölənlərə 30-40 il sonra abidə qoyuldu, adları əbədiləşdirildi. Bir ildə hər şeyi həll etmək olmaz ki. Üçüncüsü, tutaq ki, məktəbə bu gün Diyarın adını verdik, sabah, Allah eləməsin, bir başqası şəhid oldu. Onda necə olsun?".

Bu sözlərə qulaq asa-asa düşünürəm: məktəbə D.Bünyadzadənin adı üç il yox, yeddi il öncə - direktorun özünün dediyi kimi, D.Bünyadzadənin anadan olmasının 100 illiyində (1988) verilib. O vaxtdan isə çox şey dəyişib, çox sular axıb keçib.

Qısaca təsvir etdiyim bu hadisədə respublikamızda baş verən fəlakətlərin fonunda elə bir qeyri-adilik yoxdur. Torpaqlarını rayon-rayon, övladlarını ordu-ordu itirən bir milləti bir valideynin "ərköyünlüyü" çətin ki, diksindirsin. Narahatlıq doğuran başqa məsələdir. Bəlkə də hadisələrin bir ucu gedib MƏKTƏBə bağlanmasaydı, bu olayın üstündən də sükutla keçmək olardı. Amma məktəb təkcə gələcək elm adamlarını yetişdirmir. Məktəb insan yetişdirir. Şəhidlik – insanlığın zirvəsidir! Məktəb insanlığı zirvəyə qaldıran övladını indiki şagirdlərinə sevdirmirsə, qərəzçi və cılız hisslərin arxasında gizlənirsə, deməyə söz tapmırsan. Tutaq ki, Gülarə xanımda qohumluq hissləri ali hissləri üstələyib və o, məktəbin şəhid məzununa balaca bir guşə ayrılmasına da razılıq verməyib. Bəs böyük bir müəllim kollektivinin qalan üzvləri? Ən qəribəsi odur ki, hansı müəllimi dindirdimsə: "Mən məktəbə şəhid məzunumuzun adının verilməsinə razıyam. Ancaq qabağa düşüb, ağrımayan başıma niyə dəsmal bağlayım? Mənim işim dərs deməkdir". – dedi.

Bəs Fatmayı camaatı?

Fatmayıdan geri qayıdıram. İç dünyamda şairin həyəcan siqnalı kimi səslənən misraları:

*Görmür göz yaşını,*
*çay görən insan,*
*Vay çəkən,*

*saç yolan ananı görmür,*
*Özü də özünün*
*çıxır yadından,*
*Özünün oduna*
*yananı görmür.*

***"Azadlıq" qəzeti, 03 iyun, 1995***